# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



1/4/2023

## BU SAYIMIZDA

Mahirə Nağıqızı / Salam Olsun / 3
Gülqədəm Mirzəzadə / Bayraqlı Evlər / 4
Zərəngiz Dəmirçi Qayalı / Örnək 60 Yaşım / 5
Dilarə Adıgil / Gəncəyə Gedirəm / 6
Guzal Ismatova / İsyon / 9
Necibe Taşkıın Çetinkaya / Gazel Ne Olur (Leb değmez) / 10
Əzizə Ağahüseynqızı / Nə Vaxtdı / 11
Qiymət Məhərrəmli / Gəl Gedək Qarabağa / 12
Güllü Eldar Tomarlı / Kələğay / 13
Gülxar / Gəlməz Oldu / 14
Minirə Dadaşqızı / Yaşa Müqəddəs Vətənim / 15
Şerife Sönmez / Kelebek ile Yağmur / 16
Ramilə Əliyeva / Ucal Azərbaycanım / 17
Səlbi Baxış / Ana/ 18
Hənifə Şəbnəm / Qaldım / 19
Səringül Sadə / Ağlama Şəhid Anası / 20
Sahibə Yusif / Çevrilirsən Ülfətimə Sevgimə / 21
Sevinc Həmzəyeva / Kövrək Xatirələrin Üstünə Getmə / 22
Pərvanə Zəngəzurlu / İncimə/ 23
Ziba Sevindik Hüseynova / Qarabağ Azərbaycandır/ 24

T Ü R K A Y
aylıq ədəbiyyat dərgisi
Baş redaktor Lütviyyə Əsgərzadə
Məsul katib Tayyib Atmaca Sosial yayına məsul Sona İntizar
Üz qabığı rəsmi
E mail turkayedebiyat@gmail.com
4 Say Aprel 2023

Mahirə Nağıqızı

## Salam Olsun

Ey tarixi sətir-sətir yaradanlar,
Nə şanlısız, şanınıza salam olsun!
Qalacaqdır bu tarixdə var olanlar,
Silinməz ad-sanınıza salam olsun!

Rəzil oldu bizi qüvvə saymayanlar,
Qanda batdı qan içməkdən doymayanlar.
Bu milləti yıxılmağa qoymayanlar,
Dünyada hər anınıza salam olsun!

Adı qalar zaman-zaman Sər doğanın,
İzi qalmaz hər olanın,hər doğanın.
İlham, sənin, Rəcəb Təyyub Ərdoğanın,
Həmişə var canınıza salam olsun!

Şəhidlərim,haqqınız var çiynimizdə,
Kəfən geydik, qalacaqdır əynimizdə,
Çıxmayacaq, yaşayacaq eynimizdə,
Tökülən al qanınıza salam olsun!

Ələm idi, qüssə idi hər çağımız,
Otuz ildən sonra güldü növrağımız.
Dalğalandı Şuşada al bayrağımız,
Qurban olum, hamınıza salam olsun!

## Gülqədəm Mirzəzadə

# Bayraqlı Evlər

Müqəddəs Kəbədir, pirdir, ocaqdı,
Üçrəngli bayraqlar ucalan evlər.
Vətən harayına isti qucaqdı,
Üçrəngli bayraqlar ucalan evlər.

O evdə sevginin adı vətəndi,
Ata da, anada, vətən də təndir,
O evharaylara, haya yetəndir,
Üçrəngli bayraqlar ucalan evlər.

O evin kərpici, suvağı qürur,
O evin bacası, tavanı məğrur,
O evdə yayayan zirvədə durur,
Üçrəngli bayraqlar ucalan evlər.

O evbir millətin əsərindədir,
O otaq, çarpayı öz yerindədir,
Allahın əbədi nəzərindədir,
Üçrəngli bayraqlar ucalan evlər.

## Zərəngiz Dəmirçi Qayalı

# Örnək 60 Yaşım

Başıma Mövlamdan əl çəkilibdir,
Şəvə tək qapqara tel çəkilibdir,
Gözümdən neçə min yol çəkilibdir?
Gəl, bir səni görüm, altmış yaşım.

Ədəbi kamiləm, sözə ustadam,
Borana düşənə ocağam-odam,
Anadan olandan şöhrətəm, adam,
Sənə çələng hörüm, altmış yaşım.

Qayalı nəslinin balasıyam mən,
Haqsızı odlara salasıyam mən,
Bu qoca millətin anasıyam mən,
Qanadımı gərim, altmış yaşım.

Yamanın önündə əyilməmişəm,
Döymüşəm, heç zaman döyülməmişəm,
Torpağım girovmuş, mən bilməmişəm,
Sənə xəbər verim, altmış yaşım.

Təbim qaynar irmaq, sel tökülübdür,
Başıma min çələng, gül tökülübdür,
Adına xalq gəlib, el tökülübdür,
Yoluna gül sərim, altmış yaşım.

Yaşadım, Tanrıdan əmrdir, demə,
İradən poladdır, dəmirdir demə,
Axırı, bu xalqa nə verdin, demə,
Örnək imiş ömrüm, altmış yaşım.

“Kərəm Allah!”-dedim, sədası gəldi,
Şeirimin, sözümün ədası gəldi,
Zərəngiz, yer-göyün nidası gəldi,
Tanrıdanmış əmrim, altmış yaşım.

## Dilarə Adilgil

# Gəncəyə Gedirəm...

Novruz bayramı yaxınlaşır. Əhəmiyyətli bayramlar gələndə istər-istəməz keçmişləri xatırlayırsan. Novruz da ki, mənşəyi ən qədim olan bayramlarımızdandır. Hələ Şeyx Nizami öz əsərlərində onun islamdan əvvələ aid olduğunu qeyd etmişdi. Bir də, köhnə tamaşalardan bir epizod yadıma düşür... Nəsibə xanım ərini (H.Bağırov) xəbərdar edəndə ki, ay kişi, bayram gəlir, o da acıqlanıb deyinir: “Bayramın işi-gücü yoxdur, düşüb qalıb bizdə”. Zarafat öz yerində, gələk bayramın üstünə.

Keçən il Novruz gəlməmişdən onu ailəlikcə harada keçirəcəyimizi bilirdik. Respublikamızın qərbinə gedəcəkdik. Ərazisinə görə ikinci, əhalisinin sayına görə üçüncü şəhərimizə. Nizami yurdu, Cümhuriyyət şəhərimizə. Tamam! Daha tapmaca, sirr yox. Gəncəyə gedirik, bir həftəlik tətilə. Niyə bu barədə keçən il, isti-isti yox, üstündən bir il keçəndən sonra yazıram? Bilmirəm. İndi yazmaq istədim. Cavab qane edir? Bəlkə bayramın aurası diqtə edir? Ya, bir il öncəki tətilin hələ də köhnəlməyən təəssüratı? Görücəz... Havanın temperaturu biz hələ Bakıda ikən düşmüşdü. Proqnozlar da ürəkaçan deyildi. Siklon, mənfi dərəcə, qar, çovğun... Evdən çıxmamışdan bacıma zəng vurdum:

– Göygölə gedirəm.

Cavab tam isabət:

– Elə Göygöl havasıdır.

Yola erkən çıxdıq. Hacıqabulda səhər yeməyi yeyəndən sonra marşrutumuza davam etdik. Hava Bakıdakı deyildi. Şaxta kəsirdi. Gəncədə bizi Şəhidlər qarşıladı. Sülh dövründə Gəncəyə gələnləri çinarlar qarşılayardı. İndi isə üzüqara qonşularımızın ucbatından çinar ucalığını şəhid ucalığı əvəz edib. Yolun hər iki tərəfinə sıra ilə düzülmüş şəhid şəkilləri sanki şəhərin qapılarını qoruyurdu. Bu yara heç vaxt sağalmayacaq. Laxtalanıb qalacaq, münasib şərait düşən kimi yenə qanayıb özünü bəlli edəcək. Deyirlər, müharibədən də dəhşətlisi məğlubiyyətdir. Şükür ki, bu acını təkrar yaşamadıq. Onların sayəsində! Bir də... “həyat varsa, var ölüm, ha çırpın çarasında”. Amma... onların ki, ölüm deyil ki, əbədiyyətdir! Əlcəzair üçün deyirlər ki, 1 tam onda beş milyon şəhid ölkəsidir. Bəs biz? Görəsən hesablaya bilərik? Bu yolda bütün dönəmlərdə, fərqli situasiyalarda verdiyimiz şəhidləri saya bilərik?

Gəncə ta qədimdən ölkə, dövlətçilik ənənələrinə sadiq qalmış, Vətən dara düşəndə sinəsini ilk qabağa verən yurdlarımızdan olmuşdu. Dövlət xadimi və sərkərdə Cavad xanın general Sisyanovun işğalçı qoşunlarına qarşı vuruşda oğlu ilə birlikdə şəhid olması tariximizin qəhrəmanlıq səhifəsidir. 1920-ci ilin mayında sovet işğalına qarşı üsyan qaldıran gəncəlilər bu yolda 12 min nəfər qurban vermişdilər. Gəncənin I Qarabağ müharibəsində 364, ikincisində 112 şəhidi olmuş, şəhərə davamlı raket hücumu nəticəsində 26 nəfər mülki şəxs həyatını itirmişdi. Tarixin müxtəlif dövrlərində Cəncənin qanla yazdığı rəşadət dastanı belədir. Ən əsası da, bu qədim yurd hər zaman öz “nizamiliyini”, “məhsətiliyini”, Cavad xanlığını qoruyub saxlaya bilmişdir.

Elə şəhərin qapısındaymışkən “bismillah”ı onun simvolundan – Nizami məqbərəsindən başlamaq qərarına gəldik. Maşından düşən kimi vücudumuzu dəhşətli bir soyuq sardı. İlahi, bu nə hava idi? Desəm ki, ilk dəfə idi belə soyuq görürdüm, inanarsız? Elə bil havada zəlzələ baş vermişdi. Nəinki məqbərənin içində, 35 hektar ərazisi olan şəhərcikdə, ümumiyyətlə bütün Gəncədə ins-cins yox idi. Yəni soyuq camaatı evə qovmuşdu? Bilə bilmədim. Əməkdaşlar gözə dəyməsələr də, qapı açıq idi. Özümüzü içəri salıb, qaplnı qapatdıq. Külək bayırda qaldı. Binaya girə bilmədiyi üçün daha bərkdən əsməyə başladı. Amma o daha bizim üçün qorxulu deyildi. Bir az isinən kimi, böyük Nizami dünyasının sehrinə düşdük. Sanki müqəddəs məzarı qızıllı-kəhrabalı oreol bürümüşdü. Gözümə elə göründü. Soyuqdan da ola bilərdi, gün işığından gəldiyimdən də. Ya da, elə idi ki, var idi. Susmaq, qəlbində şairlə söhbətləşmək istə-

yirdin. Şeyx bu görüşü əsrlər öncə görmüşdü. Nizami öz ölümsüzlüyünü bilirdi...

Salam ver, hörmətlə məndən salam al!
Gəl qəbrim üstünə, edim istiqbal.
Bu yerdə sanma sən yar-yoldaşsız məni,
Məni görməsən də, görürəm səni!
Oxu həmdsurəni, bax mənə sarı,
Unutma, yada sal bu yatanları!

Həmdsurəni oxuduq, salavat çevirdik. "Dua pərdəlidir", – deyirlər. "Salavatı- şərifə gətirəndə pərdə qalxır..." Nizaminin sərdabəsi əsrlər boyu zəvvarların ziyarət yeri olmuş, bütün Şərqdə bu şövkətdə ocaq olmamışdı. Bir maraqlı epizodu da bölüşüm... Muzey-məqbərə kompleksinin ərazisində şairin öz qəhrəmanları ilə abidə kompozisiyası var. Orada xatirə fotosu çəkdirdik. Hava şaxtalı olduğundan tez-tələsik bir kadr çəkib maşına əyləşdik. Sonra fotoya baxanda nə görsəm yaxşıdır? Düz Nizaminin sağ əlinin altında dayanmışam. Heç düşünsəydim, bir neçə dubl etsəydim, belə kadr alınmazdı. Nizami özü sağ əlini başıma çəkib mənə xeyir-dua verdi.

Sonra şəhəri gəzməyə çıxdıq. Şairin 880 illiyi münasibətilə ölkə ərazisində elan olunan "Nizami ili" bitsə də, tədbirlərin "izləri"nə hər yerdə rast gəlinirdi.1992-ci ili xatırladım. Məqbərə təmirdən sonra açılırdı. Amma ovqat o deyildi. Xalq qara bağlamışdı. Məqbərə kimin yadına düşürdü? Şükür bu günlərə! Nizaminin də "qisas"ı alındı. Cavad xanın məqbərəsi bağlı idi. Uşaqlara danışdım ki, şəhadətindən sonra Xan qəbristanlığında dəfn olunan Cavad xanın məzarı Sovet dövründə dağıdılır. Lakin xalq igid oğlunun nəşinin qalıqlarını gizlədə bilir. 1990-cı ildə Cavad xan 80 minlik insan seli ilə yenidən əvvəlki yerində torpağa tapşırılır.

Bayram axşamı olduğundan otelə tez qayıtdıq. Qərara gəldik ki, Novruzu kənarda qeyd etməyək, nə lazımdı elə buraya sifariş verək. Oteldə qonaq az, restoranı isə boş idi. Personal bizə gözəl süfrə düzəltdi. Yemək-içmək, xonçalar, şamlar... Rənbərəng yumurtalara qədər, "həft-sin"ə daxil olmasa da onsuz bayram ötüşmür. Səməninin yanında ona yaraşan nərgiz də qoyulmuşdu. Bu gülü xüsusi sevirəm. İncəliyindən, ətrindən, "həyat" hekayəsindən dolayı. Musiqini, səsgücləndiriciləri qoşub, bizi tək buraxdılar. Əlimi ürəyimin üstünə qoyub deyə bilərəm ki, bu mənim indiyə qədər qarşıladığım ən şən Novruz oldu. Ancaq özümüz olsaq da...

Nə gözəl bayram... Ah nə xoş fürsət!
Sayılır əhli-zövqə bir nemət!..
Nə gözəl bayram! Of, gülün, sevinin!
Sevinin, həp gülün!... Nə nəşəli gün?!
(H.Cavid)

Nə qədər oynadıq! Yorulanda söhbət etdik, keçən-keçmişdən danışdıq. Ailəmizdə axır çərşənbə axşamı qulaq falına çıxardılar. Bir dəfə bibim məni də özü ilə aparmışdı. Əlinə də bir dəstə açar götürmüşdü. Dinlədiyimiz qapının arxasından səs gəldi: "Tut uşağın əlindən, çıx yavaş-yavaş yuxarı". O, cavan qız idi, mənsə uşaq. Əlimdən tutub sevinə-sevinə oradan uzaqlaşdı. Sonralar deyirdi ki, elə o çıxan, yuxarı qalxıram... "Kar yağıyor ve ben hatırlıyorum ". Arada pəncərəyə yaxınlaşıb küçəyə baxırdım. Lap şeirdəki kimi "kar yağıyor karanlıqlara". Şüşənin arxasında möhtəşəm bir qış nağılı davam edirdi. Qupquru, sakit qar yağır, dənəcikləri küçə fonarının solğun işığında fırlanıb yerə düşürdü. Bayırda tam səssizlik idi. Qar səsi udar...

Nömrəmizə qalxanda hiss etdim ki, heç özümün xoşuma gəlmirəm... Deyəsən xəstələnəcəyəm. Soyuqda çox qalmışdım, ondan idi. Orqanizmim belə gücləndirilmiş rejimə adət etməmişdi. Dərhal özümlə gəzdirdiyim nimesil+teraflyu kokteylini hazırlayıb içdim. Neçə dəfə qanımın arasına girib. Təəccüb də edirəm ki, nə əcəb belə qüvvətli preparat reseptsiz buraxılır? Anında təsir etdiyi üçün başqa məqsədlə də istifadə edərlər.

Səhər yeməyinə hamıdan qabaq düşdüm. Əla formada, motivasiyalı və drayvda. Tətilin bir gözəlliyi də tələsmədən edilən səhər yeməyindədir. "Kahvaltının mutluluqla bir ilgisi olmalı". Bir azdan uşaqlar da gəldilər. Yeməkdən sonra Göygölə yollandıq. Əvvəldən bu cür planlaşdırmışdıq. Amma indi havanı belə görüb dəstəni fikrindən daşındırmağa cəhd etsəm də, heç nə alınmadı. Göygölə çıxmaqda qərarlı idilər. Niyə qorxurdum? Səbəbini təyinat nöqtəsinə çatanda deyəcəyəm. Göygöl yolunda səfirliklərə məxsus avtomobillərdən savayı başqa maşın görünmürdü." Hacı"-

nın "kənd"ini arxada qoyanda düşündüm ki, vaxt olacaq "Xan"ın "kənd"inə belə müstəqil gedə biləcəyik. Mənzil başına çatanda bir az da xoflandım. Qoruğun post-xidmət personalından başqa çox az adam var idi. Dediyim kimi, səfirliklər qonaqlarını gətirmişdilər. Xidmət sahələri – çayçı, fotoqraf da işləyirdi. Hər tərəf ağappaq idi, hər yan buz idi. Yadıma qışın beləcə oğlan çağında, ucqarlarda, meşədə ac-yalavac canavarlar dolaşan filmlər düşdü. Söz verdiyim – "sonra deyəcəyim" bu idi. Həmişə belə filmlərə baxanda həmin situasiyanın içində olan adamları qınayırdım. – Evində otura bilmirdin? Yayı əlindən almışdılar? Bu qədər ekstrim həvəslisi olmaq olar? İndi özüm, böyük ailəmlə həmin ekstrimin tam mərkəzində idim. Tərs kimi də, barmağımı haradasa qanatmışdım. Bir bu çatmırdı.Yırtıcı həmişə qana gəlir. Barmağımı sorub "Delya, yığışdır bu vəsvəsəni! Yenə də fantaziyan fontan vurur", – deyə özümə möhkəm acıqlandım. Deyim ki, köməyi oldu. Bir tərəfdən də, ətrafdakı bəyaz gözəllik qara-qura fikirləri ağardırdı.Gölə düşən yolla sürüşə-sürüşə gedirdik. Birdən qarşımızda buz meydançasına bənzər böyük arena açıldı. Gözəlimiz Göygöl idi. Donmuşdu. Şairin söylədiyi kimi, "boynunda yaşıl kərdərbəndi" yox, üzündə ağ rübəndi var idi. İlin bu vədəsində gölün donmağının bu yerlər üçün xarakterik olmadığını mən də bilirdim. Təqvimlə qışın "tarif"i artıq bitsə də, yazdan bir əlamət görünmürdü. Buz bağlamış gölün ətrafında stol qoyub üstünə fotolar düzərək ümidsizcəsinə müştəri gözləyən fotoqrafdan başqa heç kim yox idi. Ona yaxınlaşıb az qala pışıltı ilə soruşdum: – Görəsən burada canavar olmaz? – Canavar da olar, ayı da, porsuq da... Özü də elə ucadan səsləndi ki, hamı səsə çevrildi. Üzün ağ olsun, ay şəkilçəkən! Heç olmasa, yalandan təskinlik verə bilərdin. Qorxunun əsassız olduğuna özümü inandırmağa çalışdım.Təhlükə olarsa, fotoqrafın budkasına hamımız yerləşərik... Səsimiz də ətrafı başına götürmüşdü. Kürəkənim əlini qulağına dayayıb "Göygöl" mahnısını oxuyurdu:

Göygöl, Göygöl, dağ başında piyalə,
Göygöl, Göygöl, sahilin lalə-lalə.

Bu haray-həşirə canavar gələr? Hava sakit, tük tərpənmirdi. Sonra "akvarium"da odun peçinin istisində samovar çayı içdik. Gəncə paxlavası ilə! İri, sapsarı və çoox dadlı! Paxlava ulduzun simvoludur. Şəkərbura hilalın, qoğal günəşin. İçəridə ocağın istisi elə xumarlandırırdı ki, bayırda lopa-lopa yağan qar yerə elə ahəstə səpələnirdi ki, bütün duyğularım səfərbər olmuşdu. Qoy bütün dünya gözləsin! Uşaqlara dedim ki, bu gün biz əlɘdüşməz təbiət hadisəsi ilə rastlaşdıq. Yayda bura hər kəs gələ bilər. Qışda isə yalnız nəsibində bu gözəlliyi görmək olanlar. İnsanın gözü qar da görməlidir. Bütün qışı gözlə, o da durub-durub səni bahar gələndə yaxalasın. Heyrət! Orada ikən qonşu Gədəbəyə güclü qar yağdığını eşidib düşünmədən maşınımızı həmin istiqamətə çevirduk. "Yasamal aşırımları"nı qalxdıqca havanın mənfisi də artırdı. 7, 8, 9, 10. Yol buzlu, qar güclü, yolun kənarı yarğan olmasına baxmayaraq gördüyümüz əsl qış mənzərəsi hər həyəcana dəyərdi. Yayı xatırladım... İndi ətəyindən zirvəsinə qədər bəyaz örtüyə bürünmüş bu dağlarda bir neçə ay əvvəl tamam başqa mənzərə sərgilənirdi. Çoban tütək çalır, qoyun sürüləri otlayırdı. Uzaqdan baxanda elə bilirdin dağdan asılıblar. Zaman dəyişdiyi kimi, məkan və oradakılar da dəyişir...

Gədəbəydə bir gecə qaldıq. Və bir daha əmin oldum ki, qışda tətilə getmək daha keyflidir. Yaylağın, oylağın, seyranın fəsli olmasa da... Ətraf ağ da deyildi, bəyazlıqdan maviyə çalırdı. Nəzrindən soruşuram:

– Qar əriyib nəyə dönür?

– Suya...

– Yoox... Qar əriyib bahara çevrilir. Bahar isə dağların arxasında deyildi...

Bu da son... Deyirlər səriştəsiz nağılçı ən maraqlı süjeti də bərbad günə qoyar. Lətifə danışa bilməyən kimi. Umarım, onlardan olmadım...

Guzal Ismatova

# İsyon

Dardlarim aytkani, inson qidirdim.
Menga taskin berar, vijdon qidirdim.
Toş qotgan dillarda, iymon qidirdim!
Yurak yonib böldi, qoldi faqat çöğ.
Unga aza oçing, men ölganim yöq!

Vayrona şaharda, ayançli yuzlar,
Kimlar jon dardida, kimlar mol izlar,
Onalar faryodi, yiğlagan közlar,
Yurak yonib böldi, qoldi faqat çöğ,
Unga aza oçing, men ölganim yöq!

Umid uçqunlarin, kaftimda tuttim,
Dod deb baqirmadim, dardlarim yuttim,
Alloh sabr berdi, men faqat kuttim,
Yurak yonib böldi, qoldi faqat çöğ,
Unga aza oçing, men ölganim yöq!

Qora bulutlarga töldi - Osmonim,
Alloh keçirmagay, balki isyonim,
Omonat dunyoda - “omonat jonim”
Yurak yonib böldi, qoldi faqat çöğ,
Unga aza oçing, men ölganim yöq!

## Necibe Taşkin Çetinkaya

# Gazel Ne Olur (Leb Değmez)

Gecenin en derininden çıka gelsen ne olur.
Gözlerin doğsa seherden yine gülsen ne olur

Açsa göğsündeki güller dili lâl etse de yâr
Aşkının nârına yaksan çöle salsan ne olur.

Geçiyorken seneler âh çalıyor hüznü segâh
Şu gönül aşk ile yorgun taşa çalsan ne olur

Ne keder zor ne sürûr kor n'ola görsen yüreği
Sen ki güllerde nihânsın diken olsan ne olur.

Düştü âteşlere cânân sönüyor gözde ışık
Güneşin rûşeni sensin ay'ı silsen ne olur.

## Əzizə Ağahüseynqızı

# Nə Vaxtdı

Bələnmişəm ammasına, gahına,
Məlhəm olub əlac edir ahıma,
Misraları sığal çəkir ruhuma,
Bəndlərini yazammıram nə vaxtdı.

Qoşa gəzir, qoşa durur qəmimlə,
Dost - sirdaşdı dumanımla, çənimlə,
Kövrəlirəm, o da dolur mənimlə,
Fəndlərində azammıram nə vaxtdı.

Bulud olsam göz yaşımla yarışar,
Ulduz olsam şəfəqimdə alışar,
Çəmən olsam çiçəklərə qarışar,
Ətirini yozammıram nə vaxtdı.

Duyğularım cövlan edir ruhumda,
Cana gələr o gələndə ruhum da,
Alovlanar, külə dönər ahımda,
Ağrısını yazammıram nə vaxtdı.

Tor qurubdu xəyalıma, zikrimə,
Uya bilmir düşüncəmə, fikrimə,
Dilə tutub oynatsam da ritmimə,
Havasında süzəmmirəm nə vaxtdı.

Sehr qatar haqdan yanan şamıma,
Gen gəzərsə azar dolar canıma,
Gizli gələr, sirrli gələr yanıma,
Möcüzəsin çozəmmirəm nə vaxtdı.

Harayıma kimsə gəlməz, usanar.
Aralıqda kal ovqatim qazanar.
Əzizənin fikri bitməz, uzanar,
Heca - heca bəzənmirəm nə vaxtdı.

## Qiymət Məhərrəmli

# Gəl Gedək Qarabağa

Əldə zəfər bayrağı,
Gəl gedək Qarabağa.
Azad edək torpağı,
Gəl gedək Qarabağa.

O - bədəndi, o - ruh, can,
O - şərəfdi, o həm şan,
Qarabağ - Azərbaycan,
Gəl gedək Qarabağa.

Bir dəmir yumruq olaq,
Düşmənlərdən öc alaq,
Azad olsun Qarabağ,
Gəl gedək Qarabağa.

"Lazım" gəldi nəhayət,
Silkələndi bu millət,
Hər ürəkdə tək niyyət,
Gəl gedək Qarabağa.

Xarı bülbül güllləndi,
Düşmən qanı göllləndi,
Hamı, hamı dillləndi,
Gəl gedək Qarabağa.

Bir olunca Türk Elim,
Haqqı söylədi dilim:
"Ya Qarabağ! Ya ölüm!"
Gəl gedək Qarabağa.

Şəhid ruhu: "Qalx!"- dedi,
Düşmənləri yax, dedi.
Haqq söylədi, haqq dedi:
Gəl gedək Qarabağa.

Geyib Zəfər bayrağı,
Azad etdik torpağı,
Qaytardıq Qarabağı,
Gəl gedək Qarabağa.

Haqqı doğrulan Türkəm,
Aləmlərə bir görkəm,
Sənə halaldı, Ölkəm,
Gəl gedək Qarabağa.

## Güllü Eldar Tomarlı

# Kəlağay

Bini binnət olan binəmnən gəlib,
Banu çiçək kimi sənəmnən gəlib.
Nənələr nənəsi nənəmnən gəlib,
Verər bizə hər murazı kəlağay.

Gur saçlara, birçəklərə yaraşır,
Gözəllərə, göyçəklərə yaraşır.
Hər yanağa çiçəklərə yaraşır,
Hər gül üzdə açar yazı kəlağay.

İpəkdəndi sevincimin naxışı,
Abırı, həyanı saxlar nə yaxşı,
Hər ilməsi bir sevgili baxışı,
Artırar qəmzəni, nazı kəlağay.

Güzgülənər, xınalanar qız-gəlin,
Sığallanar, sonalanar qız-gəlin,
Bulaq üstə oyalanar qız-gəlin,
Sevgiyə kökləyər sözü kəlağay.

Hər butası bir möhürdü, bir xaldı,
Dəyərinə dəyər verən mahaldı,
Güllü bir tac kimi başına saldı,
Çünki, gözəlliyin gözü kəlağay,
Hər kəsin söhbəti-sözü kəlağay.

## Gülxar

# Gəlməz Oldu

Ömrüm-günün yetdi başa,
Ötdü illər yetməz oldu.
Dərd söylədim dağa-daşa
Dillərimi bilməz oldu.

Şillə çəkdi qəm üzümə,
Namərd şər dedi sözümə,
Qaranlıq çökdü gözümə,
Bəxtim bir də gülməz oldu.

Saraldı çəmənim, çölüm,
Yetişdi qocalıq, ölüm,
Qaldı xarım, soldu gülüm,
Bahar daha olmaz oldu.

Gülxar, oldun dərdə düçar,
Daha qapını kim açar?
Qaldın dərdli, qaldın naçar,
Geden getdi, gəlməz oldu.

## Minirə Dadaşqızı

# Yaşa Müqəddəs Vətənim

Zaman- zaman, ey köksündən yaralanan anam vətən
Əsrlərdir neçə yerə paralanan canım vətən
Ey cənnətim, gülüstanım,
Ey damarda qanım mənim
Ey vüqarım, ey şərəfim,
Sən ey şöhrət- şanım mənim
Bir qartalsan, zirvədəsən,
Sənə neyləyərdi yağı?
Sapı özündən baltalar
Kəsməsəydi qol - budağı.
Çeşmələri zəm-zəm yurdum,
Ey ətri behişt qoxuyan
Sənə xain çıxanlara,
Qənim olsun suyun, havan
Əzəldən qurbandı sənə
Bu varlığım, ruhum, tənim
Kainat durduqca yaşa
Yaşa, müqəddəs vətənim.

## Şerife Sönmez

# Geçer

Yorulursun bazen
Dayanamazsın bazı şeylere
Yitireceğin gelir sevgi adına bildiklerini
Kaybolursun korkularının arasında
Ruhuna sıkıntı çöker birden
Savrulursun
Hiçbir yere ait hissetmezsin kendini
Sonra dilin Allah der.
Ve
Hepsi geçer
Elhamdülillah!

Ramilə Əliyeva

# Ucal Azərbaycanım

Ana yurdum, çiçəklənən diyarım,
Sənə bağlı duyğum, xoş arzularım,
Qoy var olsun elim, obam, mahalım,
Sabahından güc al, Azərbaycanım.

Ucaldıqca ucal, Azərbaycanım
Sən qəlbimin alovusan, odusan,
Sən eşqimin əzəl-axır adısan,
Sən dilimin bal damlayan dadısan,
Keçmişinlə qocal, Azərbaycanım.

Bu gününlə ucal, Azərbaycanım.
Dağlarının zirvəsində qar gözəl,
Yamaçlarda gül toplayan yar gözəl,
Bağ-bağçanda heyva gözəl, nar gözəl,
Gözəllikdən bac al, Azərbaycanım.

Yüksəklərə ucal Azərbaycanım
Çox yanlışlar durdu sənin qəsdinə,
Doğruları itirməyin qəsdi nə?
Mən qurbanam duruşuna,şəstinə,
Düşmənindən öc al, Azərbaycanım.

Sən tarix yaz, ucal Azərbaycanım
Ey Vətənim, ey yenilməz millətim
Var-dövlətim, şan-şöhrətim, sərvətim
Sənə bağlı saf duyğum, xoş niyyətim
Zirvələrdə tac ol, Azərbaycanım.
Qüdrətli ol, güc ol, Azərbaycanım.

## Səlbi Baxış

# Ana

Köksümün başını alır sis-duman,
Anasız yetim qız deyəndə mənə.
Ana can, ay ana darıxdım yaman,
Ürəyim doludu möhtacam sənə.

Aldı qara torpaq səni qoynuna,
Olmazın hicranı saldı araya.
Amansz fələyin düşüb oynuna,
Doğmalar duz basdı qanlı yaraya.

Dərdimi götürüb gəldim üstünə,
Gördüm nə qapı var, nə bir pəncərə.
Baxdım qara daşdan olan büstünə,
Ürəyim sinəmdə döndü pencərə.

Günüm-gündüzümə doğardı Günəş,
Sənli günlərimdə, ana can, ana.
Verərdin qol- qanad, hər işdə həvəs,
Hüsnün nur yayardı, sanki hər yana.

Gözümün nəmindən sozalıb yanaq,
Neyləyim mən sənsiz axı sən söylə?
Həftədə bir dəfə, ana, gəl qonaq,
Ağrıma, acıma sən məlhəm eylə.

Həyatdan bezmişəm, doymuşam cana,
Arxanca ağlağan uşağa döndüm.
Qohumun, yadın da əlində, ana,
Gör necə oyuncaq aşığa döndüm

Səlbiyəm, soyuyub odum-ocağım,
Sən gedən yolarda qalıbdı gözüm.
Hər işdə sən idin arxa-dayağım,
İndi qəribliyə salınır sözüm.

## Hənifə Şəbnəm

# Qaldım

Sən elə bilirsən yalqızam sənsiz,
Yox könül dünyamda qəmimlə qaldım.
Gecə sübhə qədər verib baş-başa,
Yalqız otağımda şəmimlə qaldım.

Pıçıldaşdıq şəm yandı, mən alışdım,
Gah qarğadım, gah arxanca danışdım,
Göz yaşımla axıb gölə qarışdım,
Dəryada dərd dolu gəmimlə qaldım.

Köpük oldum atıb tutanda dəniz,
Söndüm varlığımdan qalmadı bir iz,
Dağınıq köç oldum, sahildə sənsiz,
Dərdimlə yol getdim dəmimlə qaldım.

Burulğana düşüb gözümdən itdin,
Məzar daşı olub torpaqda bitdin,
Məni tənhalıqla imtahan etdin,
Kamantək inləyən simimlə qaldım.

Soruşuram bəs sən özün necəsən?
Qadirsənmi mənsiz hansı gücə sən?
İstəməzdim məndən erkən köçəsən,
Ocaq yeri kimi külümlə qaldım.

Ahımı, naləmi gətirdim dilə,
Şəbnəm xəyalınla qarışdı selə,
Sənsiz bu dünyanı dolaşam belə,
Qayıdıb yenə də səninlə qaldım.

Səringül Sadə

## Ağlama Şəhid Anası

Bundan böyük şöhrətmi var,
Bundan böyük qeyrətmi var,
Bundan böyük qiymətmi var,
Ağlama, şəhid anası.

Şəhid göydə ulduz, aydı,
Tanrımızdan bizə paydı,
Gur bulaqdı, axan çaydı,
Ağlama, şəhid anası.

Şəhidi ellər ağlayır,
Çəməndə güllər ağlayır,
Kükrəyib sellər ağlayır,
Ağlama, şəhid anası.

## Sahibə Yüsif

# Çevrilirsən Ülfətimə Sevgimə

Necə mənə əzizsən sən əzizim,
Əlçatmazım, ünyetməzim, qəlizim.
Mavi səmam, ləpələnən dənizim,
Alışdıqca, öyrəşdikcə eşqinə
Çevrilirsən ülfətimə, sevgimə..

Dəyişmərəm sənə gələn səmtimi,
Unutmaram vəfa adlı əhdimi...
Özüm qədər əziz tutub xətrini
Doğmalaşıb dost oluram könlünə,
Çevrilirsən ülfətimə, sevgimə.

Silək getsin şikayəti, gileyi,
Qərq etməyək qəm-qüssəyə ürəyi,
Qoyma əssin ayrılığın küləyi,
Özün gəl bax hörmətinə, yerinə
Çevrilmisən ülfətimə, sevgimə.

## Sevinc Həmzəyeva

# Kövrək Xatirələrin Üstünə Getmə

Kövrək xatirələrin üstünə getmə,
Hələ üzərindən yel də keçməyib.
Nə illər bacardı, işə yaradı,
Nə də duyğuları ölüb bitməyib.

Yenə həmin baxış, yenə həmin söz,
Sənin gözlərindən süzülən sevgi.
Yenə həmin nəğmə, yenə həmin köz,
Qəlbimin telinə hörülən sevgi.

Nə nəğməsi susub, nə şeiri bitib,
Donub sükutunun pərdələrində.
Yol çəkən gözümün kökündə itib,
Yanır aram - aram sənin hicrində.

Pərvanə Zəngəzurlu

# İncimə

Hicran qalib gəlsə bir gün qoynuna,
Gələmməsəm dağlar məndən incimə.
Sevincimi, kədərimi sizinlə,
Böləmməsəm dağlar məndən incimə.

Neçə ildir dastan yazdım adına,
Yaradanım yetəcəkmi dadıma,
Gəlib sənin ocağının oduna,
Qalanmasam dağlar məndən incimə.

Pərvanəyəm dozənmirəm bu dağa,
Sar qonubdu bülbül uçan budağa.
Qucağında ömrü edib sadağa,
Ölənməsəm,dağlar məndən incimə.

**Ziba Sevindik Hüseynova**

## Qarabağ  Azərbaycandır

Ürəyimdə sevinc-nəşəm,
Qələbəmiz çox möhtəşəm
Mən  vətənə "can", demişəm,
Damarımda coşan qandır,
Qarabağ  Azərbaycandır.

Düşmənlərin səddin yaran,
Yağılara zərbə vuran,
Vətəni bizə qaytaran,
Şəhid, qazi qəhrəmandır,
Qarabağ Azərbaycandır.

Sarsılmazsan, mənim ordum,
Keşiyimdə möhkəm durdun.
Çiçəklənən Ana yurdum,
Bu gün  xoşbəxt, firavandır,
Qarabağ Azərbaycandır.

Bir dünya var qucağında,
Hərarət var ocağında.
Gəzə bilmir torpağımda,
Düşmənlərim pərişandır,
Qarabağ Azərbaycandır.

Birlik bəxş etdi  ölkəyə,
Əhsən! Alqış, bu sevgiyə.
Azərbaycan, həm Türkiyə,
Dostluğumuz mehribandır,
Qarabağ Azərbaycandır.

Cənab Ali Baş Komandan,
El zəkana oldu heyran.
Qürur duyur Azərbaycan,
Adın  bizə şöhrət-şandır,
Qarabağ Azərbaycandır.

Hər tərəfin gül-çiçəkdir,
Gül açan arzu, diləkdir.
"Zəfər Günü"n mübarəkdir,
Təbrik sənə ərməğandır,
Qarabağ Azərbaycandır.